**“Mallar haqqında gömrük sərhəd buraxılış məntəqələrində qeydə alınan məlumatların verilməsi”** ***elektron gömrük xidmətindən istifadə təlimatı***

Xidmətdən istifadə etmək üçün www.e-gov.az saytına daxil olmaqla “Bütün xidmətlər” bölməsi seçilir:




2-ci addımda ölkə üzrə fəaliyyət göstərən elektron xidmətlərin ümumi siyahısından «Qurumlar» bölməsindən “Dövlət Gömrük Komitəsi” seçilir:




3-cü addımda **“Mallar haqqında gömrük sərhəd buraxılış məntəqələrində qeydə alınan məlumatların verilməsi”** xidməti seçilir:



Elektron Gömrük Bəyannaməsi haqqında məlumatların əldə edilməsi

Mallar haqqında gömrük sərhəd buraxılış məntəqələrində qeydə alınan məlumatların verilməsi

Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu, gömrük rəsmiləşdirilməsi və rəsmiləşdirilmə prosesinin onlayn monitorinqi

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi üzrə elektron Sərnişin Bəyannaməsinin qəbulu

Gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin həyata keçirilməsi

Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması

Malın adına görə malların təsvirin axtarışı

Malların nomenklaturası və mal və nəqliyyat vasitələrinə tətbiq olunan müvafiq gömrük ödənişləri barədə məlumatların verilməsi

Nəqliyyatın idxalı üçün gömrük rüsumların hesablanması

Rəsmiləşdirilmə üçün tələb olunan sənədlərin surətləri

Xarici iqtisadi fəaliyyət iştirakçılarına həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatların verilməsi

Xidmət seçildikdən sonra Elektron hökumət portalına daxil olmaq üçün səhifə açılır.




Bu mərhələdə elektron hökumət portalına daxil olmaq üçün bizdə aktiv olan müvafiq daxilolma vasitəsinə uyğun rejim seçilir. Əgər asan imza ilə daxil olmaq

lazımdırsa, “Asan imza ilə daxil olmaq” rejimi seçilir və ekranda aşağıdakı məlumatlar görünür.




Asan imza və istifadəçi İD-si daxil olunduqdan sonra “Daxil ol” düyməsi sıxılır və ekranda göstərilən rəqəm ilə telefona gələn rəqəm qarşılaşdırılır, eyni olduqda telefonun ekranında olan düymənin köməyilə bu təsdiq edilir, daha sonra Pin1 kodu daxil edilir. İnformasiya sistemi daxil olunmuş asan imzada göstərilən VÖEN-lə axtarış aparır və bu VÖEN-lə gələrək dövlət sərhədini keçən və müraciət olunduğu zaman rəsmiləşdirilməsi başa çatmamış mallar haqqında məlumatı ekrana çıxarır (Şəkil 1):




**Şəkil 1.**